# KİTABXANALARDA TURİZM SAHƏSİ ÜZRƏ İNFORMASİYA TƏLƏBATININ ÖYRƏNİLMƏSİ METODOLOGİYASI

**Hacı Qasımlı**
*Bakı Dövlət Universiteti*
*Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasının doktorantı*
*ORCİD: 0000-0001-8246-1959*
Haci_qasimli@list.ru

***Xülasə:*** *Azərbaycan Respublikasında turizm fəaliyyətinin kitabxana-informasiya təminatının mövcud vəziyyətini öyrənmək, bu sahəyə dair sənəd axınının tədqiqini aparmaq, turizm sahəsi üzrə informasiya tələbatçılarını müəyyən etmək, bu sahə üzrə sənəd axınının gələcək inkişaf modelini hazırlamaq kitabxanaşünaslığın və biblioqrafiyaşünaslığın qarşısında duran əsas vəzifələrdən biridir. Son dövrlər ölkəmizdə turizm sahəsinin inkişafı ilə əlaqədar bu sahəyə olan tələbatın dinamik şəkildə artırılmasının şahidi oluruq. Respublikada fəaliyyət göstərən müxtəlif turistik regionların tarixi, yerləşdiyi coğrafi mövqeyi və s. haqqında məlumatlarla əvvəlcədən tanış olmaq üçün ölkəmizə gələn turistlər üçün ilkin informasiya mənbəyi kimi bilavasitə bu sahəyə dair ərsəyə gətirilən sənəd-informasiya resursları mühüm rol oynayır.*
*Məqalədə turizmin kitabxana-informasiya təminatı sahəsində informasiya tələbatının öyrənilməsi zamanı meydana çıxan ümumi problemlərin həlli məqsədilə görüləcək işlər qeyd edilmiş, informasiya tələbatı anlayışı, onun elmi və nəzəri cəhətdən izahı göstərilmişdir. Turizm sahəsi üzrə informasiya tələbatı məsələsi təhlil edilərkən ilk növbədə bu sahənin informasiya tələbatının genezisinə, onun insan tələbatları sistemində mövqeyinə nəzər salınmışdır.*
***Açar sözlər:*** *Kitabxana, sənəd axını, turizm, informasiya mənbəyi, informasiya tələbatı.*

**Giriş.** Müxtəlif elm sahələri kommunikasiya sistemləri ilə çox bağlıdır. Bu sistem çərçivəsində cəmiyyətin informasiya tələbatının ödənilməsi sahəsində böyük həcmli işlər aparılır. Professional baxımdan bu prosesdə müxtəlif sosial institutlar iştirak edir ki, onların da əsas funksiyası sənədlərlə məqsədyönlü iş aparmaqdan ibarətdir. Faydalı informasiyanın yaradılması və səmərəli yayılması işi ilə elmi təşkilatlar, o cümlədən kitabxana-informasiya mərkəzləri və başqa orqanlar məşğul olur. İlk öncə məqalədə metodologiya, sənəd axını və informasiya tələbatı anlayışını şərh edək. Metodologiya sözü müxtəlif elm sahələri ilə bağlı araşdırma ilə əlaqədar tətbiq olunan metodların sistemli və nəzəri təhlilidir. İnformasiya tələbatı isə oxucu sorğularına uyğun olaraq informasiyanın oxucuya düzgün və vaxtında çatdırılmasını özündə ehtiva edən bir prosesdir. Sənəd-kommunikasiyalar sistemini müxtəlif aspektlərdən təhlil edən elm sahələrində informasiya tələbatı məsələlərinə xüsusi diqqət yetirilir. Belə



tədqiqatlar kitabxanaşünaslıqda və onun xüsusi bir elmi istiqaməti kimi oxucuşünaslıqda, biblioqrafiyaşünaslıqda, informasiya nəzəriyyəsində xüsusilə geniş miqyasda aparılmışdır. Məqalənin yazılmasında əsas məqsəd Azərbaycan Respublikasında turizm fəaliyyətinin formalaşması sahəsində kitabxanaların fəaliyyətini, turizm sahəsində informasiya təminatının rolunu, sənəd-informasiya axınını, turizm sahəsi mütəxəssislərinin informasiya tələbatının xüsusiyyətlərini, respublika əhəmiyyətli, regional, sahəvi, elmi və təhsil kitabxanalarının mövcud resursların quruluşunu təhlil etmək, turizmin informasiya təminatında informasiya konsaltinqi və metainformasiya menecmentinin inkişaf etdirilməsi məqsədi ilə respublikada mövcud olan kitabxana-informasiya infrastrukturunun modernləşdirilməsi məsələsinin elmi şərhi, turizm informasiya mərkəzlərinə informasiya dəstəyi sahəsində kitabxanaların fəaliyyətinin səmərəliyinin artırılması yollarını və turizmin informasiya təminatının təkmilləşdirilməsi problemlərini qısaca da olsa məqaləyə cəlb etməkdən ibarətdir.

**Tədqiqatın mənbəşünaslıq bazası.** İnformasiya tələbatı anlayışı, onun məzmunu və mahiyyəti, informasiya tələbatçılarının öyrənilməsi məsələləri yerli müəlliflərdən: prof. A.A.Xələfovun [2], prof. X.İ.İsmayılovun [3], prof. Z.H.Əliyevin [1], dos. Ə.M.Rüstəmovun, dos. N.İ.İsmayılovun [4], dos. E.Əhmədovun və bu sahə üzrə tədqiqat aparan digər alimlərin bir sıra kitab və məqalələrində nəzərdən keçirilmişdir. Həmçinin oxucuların, istifadəçilərin informasiya tələbatına olan diqqət kitabxanaçılıq tədqiqatları aparılan bütün ölkələrin elmi məktəblərinə xas olan əlamətdir. Belə yanaşma həmçinin MDB məkanının alimlərinin tədqiqatlarında da önəmli yer tuturdu. Məsələn, görkəmli rus-sovet kitabxanaşünas alimləri N.Kartaşov və V.Skvortsov "Ümumi kitabxanaşünaslıq" monoqrafiyasında oxucu (tələbatçı) maraqları və tələbatının kitabxananın fəaliyyətinin ilkin nöqtəsi, məqsədi və qiymətləndirilməsinin meyarı olduğunu qeyd edirdilər [7]. İstifadəçilərin tələbatlarına xüsusi diqqət həmçinin Qərb kitabxanaşünaslığı üçün də səciyyəvidir. Məsələn, ABŞ-da nəşr edilmiş "İnformasiya texnologiyaları kitabxanaçılıqda; yeni tənqidi yanaşma" adlı monoqrafiyada qeyd edilir ki, *"kitabxanaçılıq dəqiq surətdə istifadəçilərin tələbatını anlamağa və təmin etməyə və tələbatçıların resurslara əlyetərliyinin genişləndirilməsinə istiqamətlənmişdir"* [8].

**Alınan nəticələr və onların müzakirəsi.** Turizm sahəsi üzrə informasiya tələbatının ödənilməsində əsas meyar bu sahə üzrə sənəd axının öyrənilməsidir. Turizm sahəsi üzrə sənəd axını oxucuların sorğuları üzrə informasiya axtarışını təmin edən mütəxəssislərin, bələdçilərin, biblioqrafın, informasiya tələbatçılarının və kitabxanaçıların peşə fəaliyyətinin obyektidir. Axın həcmcə qeyri-məhdud, məkan baxımından çox geniş yayılmış və bəşəriyyətin tarix boyu yaratdığı sərvətləri əhatə edir. Axın alim və mütəxəssislər, yaradıcı insanlar, müxtəlif səviyyəli təşkilatlar, nəşriyyatlar və yayım müəssisələri tərəfindən zənginləşdirilir və əhalinin müxtəlif qrupları tərəfindən istifadə olunur.

Turizm sahəsi üzrə sənəd axını-daim inkişaf edən, yeniləşən, məzmun etibarilə bir-biri ilə əlaqədar olan sənədlərdir və bizi əhatə edən xarici aləm

haqqında biliyin mühafizəsi, toplanması və ötürülməsinin ən yaxşı vasitəsidir. Turizm sahəsi üzrə sənəd axını informasiya cəmiyyətinin əsas elementi hesab edilir. Peşəkar məsələlərin effektiv həlli üçün mütəxəssis sənəd axınının inkişaf qanunauyğunluqlarını və strukturunu bilməlidir. O, sənəd axınında dinamik prosesləri xarakterizə edən göstəricilərin müqayisəsi və hesablanmasına dair yenilikləri bilməlidir. Sənəd axınının tətbiqi tədqiqatlarının nəticələri iki əsas istiqamətdə istifadə oluna bilər:

Turizm sahəsi üzrə informasiya tələbatı məsələsi təhlil edilərkən ilk növbədə bu sahənin informasiya tələbatının genezisinə, onun insan tələbatları sistemində mövqeyinə nəzər salmaq lazımdır. Bildiyimiz kimi, həm fərdin, həm ictimai qrupun və eləcə də bütün bəşəriyyətin həyat prosesində bir sıra tələbatlar meydana çıxır. Bunlardan bir qrupu insanın bilavasitə bioloji xislətindən irəli gəlir (qidaya, suya, qışda istiliyə, yayda sərinə və s. tələbat). Digərləri isə məhz maddi tələbat deyildir və ya maddi tələbatlarla dolayısı ilə bağlıdır. Bunlara sosial yardıma, həmrəyliyə, cəmiyyətlə inteqrasiya olunmağa, rəğbətə və s. olan tələbatdır. İnformasiya tələbatı da ikinci qrupa aid edilir.

İnsanın lazımi informasiya əldə etmək sahəsində fəaliyyəti şəxsiyyətin fəallığının aparıcı göstəricilərdən biridir. Şəxsiyyətin həmin istiqamətdə fəaliyyətini informasiya tələbatı fəaliyyəti də adlandırmaq olar. Müşahidələr göstərir ki, insanın peşə fəaliyyəti nə qədər inkişaf edər və mürəkkəbləşərsə, onun informasiya tələbatı da bundan asılı olaraq inkişaf edərək mürəkkəbləşər. Belə xüsusiyyətlər turizm və ətraf mühitin mühafizəsi sahəsində xüsusilə nəzərə çarpır. Məsələn, Azərbaycanda insanların ətraf mühitin mühafizəsi üzrə fəaliyyətə cəlb olunması nisbətən gec, müasir zamanlarda meydana çıxmışdır [1].

Ümumilikdə turizm üzrə informasiya tələbatının və xüsusən də onun vacib tərkib hissəsi olan sənəd-informasiya tələbatının əhəmiyyətli əlamətlərdən biri bu tələbatın obyektiv və ya subyektiv olmasıdır. Tələbatçının informasiya tələbatının obyektiv və subyektiv olmasının arasındakı fərqi müqayisə yolu ilə müəyyən etmək olar. Belə bir fərqi müəyyənləşdirmək üçün insanın turizm sahəsi üzrə informasiya barəsində təsəvvürlərini təhlil etmək və bunun əsasında konkret informasiyanın bu şəxsə nə qədər zəruri olduğunu müəyyənləşdirmək tələb olunur. Belə bir təhlil aparmaq bir sıra hallarda xeyli vaxt və zəhmət tələb edir. Bu xüsusilə turizm üzrə geniş və mürəkkəb informasiya tələbatına malik olan alim və yüksək ixtisaslı mütəxəssislərə daha çox aiddir. Belə bir təhsillə məşğul olan şəxslərin informasiya tələbatı öyrənilməsi üçün də əhəmiyyəti böyükdür. Bütün yuxarıda qeyd edilənlər sübut edir ki, informasiya tələbatı informasiya fəaliyyətini stimullaşdıran amildir.

Turizm sahəsi üzrə kitabxana-informasiya tələbatının öyrənilməsində mütəxəssislərin də mühüm rolu vardır. XXI əsrdən başlayaraq cəmiyyətin informasiyalaşdırılması, turizm sahəsində yeni informasiya texnologiyalarının tətbiqi, bu sahə üzrə yeni istiqamətlərin formalaşması, dünyaya inteqrasiya, beynəlxalq əlaqələrin genişlənməsi ilə sahə üzrə sənəd axınında intensivləşmə müşahidə edilməyə başlamışdır.



**Nəticə.** Bu sahə üzrə informasiya tələbatının inkişafında əsas rolu ixtisasçı mütəxəssislər təşkil edir. Turizmin kitabxana-informasiya təminatı sahəsində informasiya tələbatının öyrənilməsi zamanı əsas problemlərdən biri də mütəxəssislərin peşəkar informasiyaya olan əlçatarlığının operativ şəkildə təşkil edilməməsidir. Bu problemin yeganə həlli yolu informasiyanın analitik işlənməsi zamanı meydana gələn ikinci dərəcəli sənədlərin yaradılması hesab olunur. Respublikada turizmin kitabxana informasiya təminatının tədqiq edilməsi üzrə informasiya tələbatının formalaşmasında bəzi Ali təhsil müəssisələri ilə yanaşı, turizm müəssisələri də mühüm rol oynayır. Respublikada bu istiqamətdə yaranan boşluqları aradan qaldırmaq üçün M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında, Azərbaycan Milli Elmlər Akdemiyasının Mərkəzi Elmi Kitabxanasında (AMEA MEK), bəzi ali məktəb kitabxanalarının fondlarında turizmə dair ümumi sənəd-informasiya resurslarının kompleks şəkildə tədqiqini aparamaq və bu sahənin fəaliyyətini genişləndirmək lazımdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. Əliyev, Z.H. (2004) Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir // – Bakı: Kitabxanaşünaslıq və biblioqrafiya, – №1, – s. 82-92.
2. Xələfov, A.A. (2009) Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 90 il elm və təhsilin xidmətində: Monoqrafiya / A.A.Xələfov. – Bakı: Bakı Universiteti nəşriyyatı,– 210 s.
3. İsmayılov, X.İ. (2007) Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı / X.İ.İsmayılov, N.İ.İsmayılov // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, ali məktəblərarası elmi məqalələr məcmuəsi, – Bakı. Bur.7, – s. 318-320.
4. İsmayılov, N.İ (2018) Kitabxanalarda biblioqrafik işin təşkili və metodikası. / N.İ.İsmayılov, X.T.Ağayeva – Bakı: Bakı Universiteti nəşriyyatı. – 183 s.
5. Tahirov, K.M. (2013) Dünya milli kitabxanaları:M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası. Dərs vəsaiti / K.M.Tahirov,elmi red. A.Xələfov. – Bakı: Bakı Universiteti nəşriyyatı. – 211 s.
6. Барабанова, Н. А. (2010) Информационно-библиографическое обеспечение туристской деятельности: / дис. кандидат педагогических наук./– Москва.– 213с.
7. Карташов, Н.С., Скворцов, В.В. Общее библиотековедение. Учебник: В 2 ч. – М.: Издательство Московского государственного университета культуры, 1997. – 256 с.
8. Information technology in librarianship: new critical approaches/ edited by Gloria J.Leckie and John E. Buschman.-Westport-London: Libraries Unlimited, 2009.– 297 p.


**Г.Гасымлы**

**Методология изучения информационного спроса в сфере туризма в библиотеках**

***Резюме:*** *Изучение текущего состояния библиотечно-информационного обеспечения туристической деятельности в Азербайджанской Республике,*

*проведение исследования документооборота в этой сфере, выявление потребителей информации в сфере туризма, подготовка будущей модели развития потока документов в этой области является одной из основных задач, стоящих перед библиотечно-библиографическим делом. В последнее время мы наблюдаем динамичный рост спроса на эту сферу в связи с развитием туризма в нашей стране. История, географическое положение и т.д. различных туристических регионов, действующих в республике. Документы и информационные ресурсы, непосредственно связанные с этой сферой, играют важную роль в качестве первоисточника информации для туристов, приезжающих в нашу страну для заблаговременного ознакомления с информацией.*

*В статье упоминается работа, которую необходимо провести для решения общих проблем, возникающих при изучении информационного спроса в сфере библиотечно-информационного обеспечения туризма, дается понятие информационного спроса, его научно-теоретическое объяснение. показано. При анализе вопроса информационного спроса в сфере туризма прежде всего рассматривался генезис информационного спроса этой сферы и его место в системе потребностей человека.*

***Ключевые слова:*** *библиотека, документооборот, туризм, источник информации, спрос на информацию.*

**H.Gasimli**

**The methodology of studying information demand in the field of tourism in libraries**

***Summary:*** *Studying the current state of library-information provision of tourism activity in the Republic of Azerbaijan, conducting a study of the flow of documents in this field, identifying information consumers in the field of tourism, preparing a future development model of the flow of documents in this field is one of the main tasks facing librarianship and bibliography. In recent times, we are witnessing a dynamic increase in the demand for this field due to the development of tourism in our country. History, geographic location, etc. of various touristic regions operating in the Republic. Documents and information resources directly related to this field play an important role as a primary source of information for tourists who come to our country to familiarize themselves with the information in advance.*

*In the article, the work to be done in order to solve the common problems that arise during the study of the information demand in the field of library-information provision of tourism is mentioned, the concept of information demand, its scientific and theoretical explanation is shown. While analyzing the issue of information demand in the field of tourism, first of all, the genesis of the information demand of this field and its position in the system of human needs were considered.*

***Keywords:*** *Library, document flow, tourism, information source, information demand.*

***Rəyçi:*** *t.ü.e.dok., prof.* ***X.İ.İsmayılov***